# KONSOLİDASİYA EDİLMİŞ MALİYYƏ HESABATLARININ İCMALI

31 DEKABR 2023-CÜ İL TARİXİNƏ

BESTCOMP GROUP

**Mündəricat**

MÜSTƏQİL AUDİTORUN HESABATI ........ 2
KONSOLİDASİYA EDİLMİŞ MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT ........ 4
KONSOLİDASİYA EDİLMİŞ MƏNFƏƏT VƏ YA ZƏRƏR HAQQINDA HESABAT ........ 5
KONSOLİDASİYA EDİLMİŞ ........ 6
PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT ........ 6
KONSOLİDASİYA EDİLMİŞ KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT ........ 8
MALİYYƏ HESABATLARI İLƏ BAĞLI QEYDLƏR ........ 9

1. Şirkətin əsas fəaliyyəti ........ 9
2. Qrupun əməliyyat mühiti ........ 10
3. Əsas uçot siyasətlərinin qısa xülasəsi ........ 14
4. Əsas vəsaitlər ........ 17
5. Debitor borcları ........ 19
6. Kreditor borcları ........ 19
7. Ehtiyyatlar ........ 20
8. Satişdan gəlirlər ........ 20
9. Əməliyyat və digər inzibati xərclər ........ 21
10. Alınmış avanslar ........ 21
11. Verilmiş avanslar ........ 22

BESTCOMP GROUP

## MÜSTƏQİL AUDİTORUN HESABATI

**"BESTCOMP GROUP" QSC-nin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə**

***Rəy***

Bizim fikrimizcə, əlavə edilən konsolidasiya edilmiş maliyyə hesabatları Qrupun 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə tamamlanan il üzrə maliyyə nəticələrini bütün əhəmiyyətli aspektlər baxımından Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun olaraq düzgün əks etdirir.

***Auditin predmeti***

Qrupun konsolidasiya edilmiş maliyyə hesabatlarına aşağıdakılar daxildir:

- 31 dekabr 2023-cü il tarixinə konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabat;
- həmin tarixdə tamamlanan il üzrə mənfəət və ya zərər haqqında hesabat;
- həmin tarixdə tamamlanan il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabat;
- həmin tarixdə tamamlanan il üzrə kapitalda dəyişikliklər haqqında hesabat
- və
- əsas uçot siyasətlərinin qısa xülasəsi, digər izahedici məlumatlar daxil olmaqla maliyyə hesabatları ilə bağlı qeydlər.

***Rəy üçün əsas***

Biz auditi Beynəlxalq Maliyyə Hesabatı Standartların uyğun aparmışıq. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

***Konsolidasiya edilmiş Maliyyə Hesabatlarının Hazırlanması üzrə Rəhbərliyin Məsuliyyəti***

Rəhbərlik hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatı Standartların uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə, həmçinin fırıldaqçılıq

və ya səhv üzündən əhəmiyyətli təhriflər olmayan maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin fikrincə zəruri olan daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

***Auditorun Məsuliyyəti***

Bizim məsuliyyətimiz apardığımız audit əsasında həmin konsolidasiya edilmiş maliyyə hesabatları üzrə rəy bildirməkdir. Biz auditi Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun aparmışıq. Həmin Standartlar bizdən etik normalara riayət etməyi, auditin planlaşdırılması və aparılmasını maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə kifayət qədər əmin olacaq tərzdə həyata keçirməyi tələb edir.

Auditə konsolidasiya edilmiş maliyyə hesabatlarındakı məbləğlər və açıqlamalara dair audit sübutunun əldə edilməsi üçün prosedurların həyata keçirilməsi daxildir. Seçilmiş prosedurlar auditorun mülahizəsindən, eləcə də fırıldaqçılıq və ya səhv nəticəsində maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərinin qiymətləndirilməsindən asılıdır. Həmin riskləri qiymətləndirərkən auditor müəssisənin daxili nəzarət sisteminin effektivliyinə dair rəy bildirmək üçün deyil, şəraitə görə müvafiq audit prosedurlarının işlənib hazırlanması məqsədilə müəssisə tərəfindən maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarət sistemini nəzərdən keçirir. Bundan əlavə, auditə mövcud uçot siyasətinin uyğunluğunun və rəhbərliyin uçot ehtimallarının əsaslandırılmasının qiymətləndirilməsi, eləcə də maliyyə-vergi hesabatlarının ümumi təqdimatının dəyərləndirilməsi daxildir.

Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

11 İyun 2024-cü il

Bakı, Azərbaycan

SMART AUDIT LLC · AZERBAIJAN REPUBLIC · SMART AUDIT MMC · SA · SMART AUDİT

Auditorlar Palatası tərəfindən hazırkı rəy üçün verilən qeydiyyat nömrəsi: 7FoMgOl1K7

**BESTCOMP GROUP**

# KONSOLİDASİYA EDİLMİŞ MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT

*(Məbləğlər Azərbaycan manatı ilə ifadə edilir)*

| **AKTİVLƏR** | **31 dekabr 2022-ci il** | **31 dekabr 2023-cü il** |
|---|---|---|
| Nəğd pul və pul ekvivalentləri | 11 010 432,58 | 12 524 847,51 |
| Debitor borcları | 16 274 595,00 | 10 019 449,62 |
| Ehtiyatlar | 49 519 557,01 | 39 108 383,02 |
| Əvvəlcədən ödənilmiş avanslar | 3 157 762,62 | 1 529 921,66 |
| Dövlət büdcəsinə (vergilər üzrə) | 0,00 | 2 443 294,57 |
| Digər aktivlər | 3 028 536,38 | 887 902,58 |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | **82 990 883,59** | **66 513 798,96** |
| Əsas vəsaitlər | 5 889 063,77 | 5 551 715,79 |
| Qeyri-maddi aktivlər | 376 845,44 | 432 203,91 |
| Birləşdirilməmiş törəmə müəssisələrə və filiallara investisiyalar | 2 649 676,79 | 1 339 176,79 |
| Digər uzunmüddətli aktivlər | 8 220 000,00 | 8 283 911,25 |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | **17 135 586,00** | **15 607 007,74** |
| **CƏMİ AKTİVLƏR** | **100 126 469,59** | **82 120 806,70** |
| **ÖHDƏLİKLƏR** | | |
| Əvvəlcədən alınmış ödənişlər | 15 306 898,52 | 11 266 739,42 |
| Kreditor borcları | 29 308 531,69 | 16 972 844,09 |
| Digər öhdəliklər | 1 522 484,86 | 495 974,79 |
| Təsisçilər ilə hesablaşmalar | 1 097 853,00 | 310 003,52 |
| Bank kreditləri qısamüddətli | 22 311 925,32 | 21 616 410,90 |
| **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | **69 547 693,39** | **50 661 972,72** |
| Bank kreditləri uzunmüddətli | 0,00 | 0,00 |
| Digər üzünmüddətli öhdəliklər | 0,00 | 27 831,00 |
| **CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | **0,00** | **27 831,00** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **69 547 693,39** | **50 689 803,72** |
| **KAPİTAL** | | |
| Nizamnamə kapitalı | 10 472 330,00 | 8 962 330,00 |
| Bölüşdürülməmiş mənfəət | 20 106 446,20 | 22 366 150,98 |
| Nəzarət etməyənlərin iştirak payı | | 102 522,00 |
| **CƏMİ KAPİTAL** | **30 578 776,20** | **31 431 002,98** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | **100 126 469,59** | **82 120 806,70** |

11 iyun 2024-cü il tarixində imzalanmış və buraxılış üçün təsdiqlənmişdir.

Həsənov Fərid
Baş icraçı Direktor

Əliyeva Pərvanə
Baş mühasib

BESTCOMP GROUP

**Əlavə olunmuş qeydlər bu maliyyə hesabatının ayrılmaz tərkib hissəsidir*

**BESTCOMP GROUP**

# KONSOLİDASİYA EDİLMİŞ MƏNFƏƏT VƏ YA ZƏRƏR HAQQINDA HESABAT

*(Məbləğlər Azərbaycan manatı ilə ifadə edilir)*

| **MADDƏLƏR** | **31 dekabr 2022-ci il** | **31 dekabr 2023-cü il** |
|---|---|---|
| **Gəlir** | | |
| Əməliyyat gəlirləri | 152 037 735,65 | 206 790 496,18 |
| Azərbaycan Respublikasının hüdudlarından kənarda əldə edilmiş gəlir | 3 901 909,17 | |
| Xarici valyutanın manata nisbətən (müsbət)/mənfi məzənnə fərqi | (14 154,60) | (39 502,05) |
| Digər gəlirlər | 16 431,87 | 42 055,31 |
| **Cəmi gəlirlər** | **155 941 922,09** | **206 793 049,44** |
| Əməliyyat xərcləri | (131 243 064,11) | (155 229 544,30) |
| Bank komisyon xərcləri (kredit üçün %) | (2 029 242,89) | (1 765 726,03) |
| Əməliyyat və digər xərclərin cəmi | (133 272 307,00) | (19 519 733,40) |
| **Xalis əməliyyat gəlirləri** | **22 669 615,09** | **30 278 045,71** |
| Vergiyə cəlb edilən mənfəət | 22 669 615,09 | 18 622 414,39 |
| Vergiyə cəlb edilməyən mənfəət (Güzəşt və azadolmalar) | | 11 655 631,32 |
| Mənfəət vergisi | (4 494 499,55) | (3 724 482,88) |
| **Xalis mənfəət** | **18 175 115,54** | **26 553 562,83** |
| **AM səhimdarların payı** | | **26 451 040,83** |
| **Nəzarət etməyənlərin iştirak payı** | | **102 522,00** |

11 iyun 2024-cü il tarixində imzalanmış və buraxılış üçün təsdiqlənmişdir.

Həsənov Fərid
Baş icraçı Direktor

Əliyeva Pərvanə
Baş mühasib

**Əlavə olunmuş qeydlər bu maliyyə hesabatının ayrılmaz tərkib hissəsidir.*

BESTCOMP GROUP

# KONSOLİDASİYA EDİLMİŞ
# PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT

*(Məbləğlər Azərbaycan manatı ilə ifadə edilir)*

| **Əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | **31 dekabr 2022-ci il** | **31 dekabr 2023-cü il** |
|---|---|---|
| Mənfəət vergisindən əvvəl mənfəət / (zərər) (güzəşt və azadolmalar nəzərəalınmaqla) | 22 683 769,69 | 30 278 045,71 |
| Düzəlişlər | 0,00 | (1 582 016,94) |
| Maliyyə xərcləri mənfəət / (zərər) | 2 029 242,89 | 1 765 726,03 |
| Əsas vəsaitlərin köhnəlməsi | 696 922,60 | 644 920,88 |
| **Dövriyyə kapitalında dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | **25 409 935,18** | **31 106 675,68** |
| Ticarət və digər alacaqlardakı (artım )/ azalma | 1 535 254,82 | 6 255 145,38 |
| Alınmış avanslarda (artım) / azalma | 4 466 136,74 | (4 040 159,10) |
| Əvvəlcədən ödənişlərdə (artım) / azalma | (1 711 940,60) | 1 627 840,96 |
| Digər aktivlərdə (artım) / azalma | 610 413,36 | 2 140 633,80 |
| Ticarət və digər borc öhdəliklərində (artım) / azalma | 7 774 820,42 | (12 335 687,60) |
| Digər öhdəliklərdə (artım )/ azalma | 99 460,98 | (6 740 094,62) |
| Ehtiyatlarda (artım) /azalma | (6 061 866,50) | 10 411 173,99 |
| **Əməliyyat fəaliyyəti üzrə daxil olan pul vəsaitləri** | **32 122 214,40** | **28 425 528,48** |
| Ödənilmiş mənfəət vergisi | (3 578 577,91) | (3 724 482,88) |
| Ödənilmiş faizlər | (2 029 242,89) | (1 765 726,03) |
| **Əməliyyat fəaliyyəti üzrə xalis pul vəsaitləri** | **(5 607 820,80)** | **(5 490 208,91)** |
| **İnvestisiya fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| Əmlak, tikili və avadanlıqların alınması | (610 209,16) | 281 989,52 |
| İnvestisiya (artım)/azalma | (2 124 670,08) | 1 246 588,74 |
| **İnvestisiya fəaliyyəti üzrə xalis pul vəsaitləri** | **(2 734 879,24)** | **1 528 578,26** |
| **Maliyyə fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| Borc öhdəliklərindən daxilolmalar | 21 480 353,00 | 24 215 000,00 |
| Borc öhdəliklərinin geri qaytarılması | (31 632 168,01) | (25 980 536,42) |
| Ödənilmiş dividendlər | (15 548 770,89) | (21 144 444,44) |
| **Maliyyə fəaliyyəti üzrə daxil olan pul vəsaitləri** | **(25 700 585,90)** | **(22 909 980,86)** |
| Xalis məzənnə fərqləri | (14 154,60) | (39 502,05) |

BESTCOMP GROUP

| | | |
|---|---|---|
| **Dövr üzrə xalis pul vəsaitləri axını** | **(1 935 226,14)** | **1 514 414,93** |
| | | |
| İlin əvvəlinə nəğd pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 12 945 658,72 | 11 010 432,58 |
| İlin sonuna nəğd pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 11 010 432,58 | 12 524 847,51 |

11 iyun 2024-cü il tarixində imzalanmış və buraxılış üçün təsdiqlənmişdir.

Həsənov Fərid
Baş icraçı Direktor

Əliyeva Pərvanə
Baş mühasib

*Əlavə olunmuş qeydlər bu maliyyə hesabatının ayrılmaz tərkib hissəsidir.*

BESTCOMP GROUP

# KONSOLİDASİYA EDİLMİŞ KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT

*(Məbləğlər Azərbaycan manatı ilə ifadə edilir)*

| | Nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət | Ümumi kapital |
|---|---|---|---|
| **Əvvəlki hesabat dövrünün əvvəlinə olan qalıq 01.01.2022-ci il** | **8 962 330,00** | **19 830 812,27** | **28 793 142,27** |
| Səhvlərin düzəldilməsindən sonra əvvəlki hesabat dövrünün əvvəlinə qalıq | 8 962 330,00 | 19 830 812,27 | **28 793 142,27** |
| Əvvəlki hesabat dövründə xalis mənfəət (zərər) | | 18 175 115,54 | **18 175 115,54** |
| Ödənilmiş dividend | | (15 548 770,89) | **(15 548 770,89)** |
| Razılıq əsasında ödənilən vəsait | | (840 710,72) | **(840 710,72)** |
| **Əvvəlki hesabat dövrü üzrə kapitalda dəyişikliklərin cəmi 31.12.2022-ci il** | **8 962 330,00** | **21 616 446,20** | **30 578 776,20** |
| | | | |
| **Əvvəlki hesabat dövrünün əvvəlinə olan qalıq 01.01.2023-cü il** | **8 962 330,00** | **21 616 446,20** | **30 578 776,20** |
| Hesabat dövründə uçot siyasətində dəyişikliklər və ya əhəmiyyətli səhvlərlə bağlı düzəlişlər | | (1 582 016,94) | **(1 582 016,94)** |
| Səhvlərin düzəldilməsindən sonra hesabat dövrünün əvvəlinə qalıq | **8 962 330,00** | **20 034 429,26** | **28 996 759,26** |
| Hesabat dövründə xalis mənfəət (zərər) | | 26 451 040,83 | **26 451 040,83** |
| Ödənilmiş dividend | | (21 144 444,44) | **(21 144 444,44)** |
| Razılıq əsasında ödənilən vəsait | | (2 974 874,67) | **(2 974 874,67)** |
| Nəzarət etməyənlərin iştirak payı | | 102 522,00 | **102 522,00** |
| **Hesabat dövrü üzrə kapitalda dəyişikliklərin cəmi** | **8 962 330,00** | **22 468 672,98** | **31 431 002,98** |

11 iyun 2024-cü il tarixində imzalanmış və buraxılış üçün təsdiqlənmişdir.

Həsənov Fərid
Baş icraçı Direktor

Əliyeva Pərvanə
Baş mühasib

**Əlavə olunmuş qeydlər bu maliyyə hesabatının ayrılmaz tərkib hissəsidir.*

# MALİYYƏ HESABATLARI İLƏ BAĞLI QEYDLƏR

## 1. Şirkətin əsas fəaliyyəti

"Bestcomp Group" QSC-nin 22 iyun 1998-ci il Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən yaradılmış və Azərbaycan Respublikasında fəaliyyət göstərməkdədir. Şirkətin nizamnamə kapitalı Vergilər Nazirliyi yanında Bakı Vergilər Departamentinin Kommersiya hüquqi şəxslərin Dövlət qeydiyyatı idarəsi tərəfindən verilmiş 01 iyun 2022-ci il tarixli son çıxarışa əsasən 8 962 330.00 AZN təşkil edir.

| Təsisçilər | 2022 (%) | 2023(%) |
|---|---|---|
| Həsənov Saleh İlyas oğlu | 14,73% | 14,73% |
| Həsənov Rauf İlyas oğlu | 63,50% | 63,50% |
| Məmmədov Əsəd Rauf oğlu | 21,77% | 21,77% |
| **Cəmi** | **100%** | **100%** |

Şirkətin əsas fəaliyyət istiqaməti kompüterlərin, kompüter periferiya avadanliqlarinin və proqram təminatinin topdan satişindan ibarətdir.

**Şirkətin hüquqi ünvanı:** Azərbaycan Respublikası, Bakı şəhəri, AZ 1025, Xətai rayonu , 8 noyabr, ev.25E

**Təqdimat valyutası:** Hazırkı maliyyə hesabatındakı məbləğlər başqa cür qeyd olunmadığı təqdirdə, Azərbaycan Manatı ilə ("AZN") ifadə olunmuşdur.

"Bestcomp Group " QSC-nin təsisçisi olduğu **"B AND B SECURİTY ALLİANCE LİMİTED" MMC** Vergilər Naziliyinin yanında Milli Gəlirlər Baş İdarəsinin Hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsində 28.12.2019-cu il tarixində qeydiyyata alınmış və Dövlət qeydiyyatı haqqında 2006006361 saylı VÖEN verilmişdir.

Cəmiyyətin Nizamnamə kapitalı 100 000.00 manat təşkil edir.

Cəmiyyətin təsisçiləri 51 faiz payla "Bestcomp Group "QSC, 49 faiz Qeyri-nəzarət paylarıdır.

Cəmiyyətin hüquqi ünvanı: AZ-1025 Bakı şəh. Xətai rayonu 8 Noyabr PR., ev 25

"Bestcomp Group " QSC-nin təsisçisi olduğu **"BESTEL SYSTEMS" MMC** Vergilər Naziliyinin yanında Milli Gəlirlər Baş İdarəsinin Hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsində 23.07.2019-cu il tarixində qeydiyyata alınmış və Dövlət qeydiyyatı haqqında 1306190931 saylı VÖEN verilmişdir.

Cəmiyyətin Nizamnamə kapitalı 100 000.00 manat təşkil edir.

Cəmiyyətin təsisçiləri 100 faiz payla "Bestcomp Group " QSC, 0 faiz Qeyri-nəzarət paylarıdır.

Cəmiyyətin hüquqi ünvanı: AZ-1122 Bakı şəh. Yasamal rayonu Həsənbəy Zərdabi PR., ev 190C

"Bestcomp Group" QSC-nin təsisçisi olduğu **"HTECH INVEST" MMC** Azərbaycan Respublikası Vergilər Naziliyi Kommersiya Hüquqi şəxslərin Dövlət Reyestrindən Çıxarış 11 saylı Ərazi Vergilər Departamentində 29.01.2015-cu il tarixində qeydiyyata alınmış və Dövlət qeydiyyatı haqqında 2700951761 saylı VÖEN verilmişdir.

Cəmiyyətin Nizamnamə kapitalı 10 000.00 manat təşkil edir.

Cəmiyyətin təsisçiləri 95 faiz payla "Bestcomp Group " QSC, 5 faiz Qeyri-nəzarət paylarıdır.

Cəmiyyətin hüquqi ünvanı: AZ-4500 Mingəçevir şəh., H.Əliyev, ev 71

"Bestcomp Group"QSC-nin təsisçisi olduğu **"Kür Elektron Avadanlıqları İstehsalı" MMC** Azərbaycan Respublikası Vergilər Naziliyi Kommersiya Hüquqi şəxslərin Dövlət Reyestrindən Çıxarış 11 saylı Ərazi Vergilər Departamentində 10.09.2004-cü il tarixində qeydiyyata alınmış və Dövlət qeydiyyatı haqqında 1700161741 saylı VÖEN verilmişdir.

Cəmiyyətin Nizamnamə kapitalı 1300 000.00 manat təşkil edir.

Cəmiyyətin təsisçiləri 100 faiz payla "Bestcomp Group " QSC, 0 faiz Qeyri-nəzarət paylarıdır.

Cəmiyyətin hüquqi ünvanı: AZ-4500 Mingəçevir şəh., H.Əliyev, ev 71

**Təqdimat valyutası:** Hazırkı maliyyə hesabatındakı məbləğlər başqa cür qeyd olunmadığı təqdirdə, Azərbaycan Manatı ilə ("AZN") ifadə olunmuşdur.

## 2. Qrupun əməliyyat mühiti

Şirkətin əməliyyatları Azərbaycan Respublikasında həyata keçirilir. Azərbaycan iqtisadi islahatları aparmağa və hüquqi, vergi və nizamlayıcı infrastrukturu təkmilləşdirməyə davam edir. Azərbaycan iqtisadiyyatının gələcək sabitliyi önəmli dərəcədə islahatlardan, dövlət tərəfindən aparılan iqtisadi, maliyyə və monetar tədbirlərin effektivliyindən və Azərbaycan manatının sabitliyindən asılıdır.

Azərbaycan iqtisadiyyatı həmçinin beynəlxalq enerji qiymətləri səviyyəsindən əhəmiyyətli dərəcədə asılıdır. Ötən il neft qiymətlərində baş verən kəskin dalğalanmalarla yadda qalmışdır. İlin ilk yarısında azalma meyilli olan neft qiymətlərində ikinci yarımildə artım müşahidə olunmuşdur. Ümumilikdə, 2022-ci ildə son dövrlərin maksimum səviyyəsinə qalxan neft qiymətləri ötən ildə bir qədər enmişdir. Belə ki, Brent markalı neftin bir barel üçün orta qiyməti 2023-cü ildə 82.2 ABŞ dolları olmuşdur ki, bu

da 2022-ci ilin orta qiymətindən (99.2 ABŞ dolları) 17.1% aşağıdır.

Qarabağ regionunda atəşkəs razılaşmasının davam etməsi biznes mühitini də müsbət təsir göstərir, çünki investisiyaların cəlb edilməsi və işğaldan azad edilmiş ərazilərin inkişafı üçün hökumət tərəfindən həyata keçirilən bir sıra layihələr mövcuddur.

2022-ci ildə neft-qaz sektorunda istehsal olunmuş əlavə dəyər 2,7% azalmış, qeyri neft-qaz sektorunda isə 9,1% artmışdır. Qeyri neft-qaz sektorunun artım tempinə, əsasən, nəqliyyat və anbar təsərrüfatı, tikinti, turizm və ictimai iaşə sahələri yüksək artırıcı təsir göstərmişdir. 2023-cü ildə ixracın neft-qaz sektoru üzrə dəyəri 13% azalmışdır ki, bu da əsasən ixrac qiymətlərinin dəyişimi ilə bağlıdır. İxracın dəyəri xam neft üzrə 16.6%, təbii qaz üzrə isə 8.7% azalmışdır. Qeyri neft-qaz sektoru üzrə ixrac 9.9% artmışdır. Hesabat ilində qeyri neft-qaz sektorunda əlavə dəyər ötən ilin müvafiq dövrünə nəzərən real ifadədə 3.7% artmış və nominal olaraq 77.7 mlrd. manat təşkil etmişdir.

2022-ci ildə ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 18,3 milyard manat və ya 2021-ci ilə nisbətən 5,5% çox vəsait yönəldilmişdir. Neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 9,8% azalsa da, qeyri neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi 13,6% artmışdır ki, bu da əsasən dövlət mülkiyyətində olan təşkilatlar tərəfindən qoyulan investisiyalar hesabına olmuşdur. 2023-cu ildə Qeyri neft-qaz sektorunun inkişafına yönəldilən 14 mlrd. manatlıq vəsaitin 1.9 mlrd. manatı və ya ümumi sərmayənin 9.2%-i qeyri neft-qaz sənayesində istifadə edilmişdir. Əsas kapitala yönəldilmiş investisiyaların 80.9%-i daxili mənbələr, 19.1%-i isə xarici mənbələr hesabına formalaşmışdır. Əsas kapitala yönəldilmiş sərmayənin ümumi həcmində müəssisə və təşkilatların öz vəsaitləri (48.5%) üstünlük təşkil etmişdir.

Dövlət Gömrük Komitəsinin statistikasına əsasən hesabat ilində ölkənin xarici ticarət dövriyyəsi 51.2 mlrd. ABŞ dolları təşkil etmişdir ki, bunun da 33.9 mlrd. ABŞ dolları (və ya 66.2%-i) ixracın, 17.3 mlrd. ABŞ dolları (və ya 33.8%-i) isə idxalın payına düşmüşdür. Xarici ticarət balansında 16.6 mlrd. ABŞ dolları məbləğində müsbət saldo əmələ gəlmişdir. Ticarət dövriyyəsinin yarıdan çoxu İtaliya, Türkiyə, Rusiya, Çin, Almaniya, Hindistan, Yunanıstan, ABŞ, İspaniya və Gürcüstan kimi ölkələrin payına düşmüşdür.

2023-cü ildə ölkədə iqtisadi artım davam etmiş, məcmu tələbin başlıca komponentləri iqtisadi artımı dəstəkləmişdir. Qeyri neft-qaz sektoru iqtisadi aktivliyin yüksəlməsinin əsas hərəkətverici qüvvəsi olmuşdur.

Hesabat ilində qeyri neft-qaz sektorunda əlavə dəyər ötən ilin müvafiq dövrünə nəzərən real ifadədə 3.7% artmış və nominal olaraq 77.7 mlrd. manat təşkil etmişdir. Qeyri neft-qaz sektorunun artım tempinə tikinti, qeyri neft-qaz sənayesi, turizm və ictimai iaşə sahələri yüksək artırıcı təsir göstərmişdir. 2023-cü ildə ölkədə 123,0 milyard manatlıq vəya 2022-ci illə müqayisədə 1,1 faiz çox ümumidaxili məhsul istehsal edilmişdir. ÜDM-in 63,1%-i qeyri neft-qaz sektorunun payına düşmüşdür.

İqtisadiyyatın bərpası davam edən prosesdir və qeyri-karbohidrogen sektoru neft-qaz sektorunun güclü töhfəsi ilə əsas güc kimi çıxış edir və artan neft tələbi və neft qiymətləri ilə birlikdə ümumi iqtisadi göstəriciləri daha da gücləndirə bilər.

2022-ci ildə Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyəti uçot dərəcəsi 7.5%-dən 8.25%-ə yüksəldilməklə bərabər, faiz dəhlizinin yuxarı həddi 9,25%, aşağı həddi 6.25% səviyyəsində müəyyən edilmiş. Lakin, 2023-cu ilin sonuna Azərbaycan Respublikası Mərkəzi Bankının uçot faiz dərəcəsi ilə bağlı verdiyi məlumata əsasən uçot dərəcəsi 9%- dən 8%-ə, faiz dəhlizinin yuxarı həddi 10%-dən 9%-ə, faiz dəhlizinin aşağı həddi isə 7.5%-dən 6.5%-ə endirilmişdir.

2023-cü ildə Azərbaycan Respublikasının Mərkəzi Bankı qlobal geosiyasi gərginliyin davam etdiyi, qlobal iqtisadi aktivliyin nisbətən zəif olduğu, əksər ölkələrdə sərt pul siyasətinin yürüdüldüyü, qlobal inflyasiya təzyiqlərinin nisbətən səngidiyi bir mühitdə fəaliyyət göstərmişdir. Hesabat ilində həm xarici və daxili amillərin dəyişimi, o cümlədən həyata keçirilən antiinflyasiya siyasəti nəticəsində illik inflyasiyada azalma meyilləri güclənmişdir. İlin son aylarında inflyasiya hədəf daxilində formalaşmağa başlamışdır. Tərəfdaş ölkələrdə qiymət artımlarının səngiməsindən əlavə manatın nominal effektiv məzənnəsinin möhkəmlənməsi ölkəyə inflyasiya idxalının azalmasında mühüm rol oynamışdır.

2023-cü ildə pandemiyanın mənfi təsirlərinin davam etməsi, mərkəzi bankların pul siyasəti və əksər ölkələrdə inflyasiyanın azalan istiqamətdə dəyişimi qlobal iqtisadi aktivlik göstəricilərinə təsir etmişdir.
2023-cü ilin dekabrında illik inflyasiya (2023-cü ilin dekabr ayı 2022-ci ilin dekabr ayına nəzərən) 2.1% təşkil etmişdir. Orta illik inflyasiya (2023-cü ilin yanvar-dekabrı 2022-ci ilin yanvar-dekabrına nəzərən) isə 8.8% olmuşdur.

Ərzaq məhsulları üzrə illik inflyasiya dekabrda 0.8%, orta illik inflyasiya isə 9.6% olmuşdur. Qeyri-ərzaq məhsulları dekabrda keçən ilin müvafiq ayına nəzərən 2.7% bahalaşmışdır. Orta illik qeyri-ərzaq məhsulları inflyasiyası isə 8.4% təşkil etmişdir. Dekabrda illik xidmət inflyasiyası 3.7%, orta illik xidmət inflyasiyası isə 8.2% təşkil etmişdir.

2022-ci ildə inflyasiyanın qeyri-ərzaq və xidmət komponentləri üzrə stabillik davam edir ki, bu da əsasən istehlak tələbinin azalmasından irəli gəlir. Qeyri-ərzaq məhsullarının qiymətləri son ayda 0.1%, xidmətlər isə 0.9% bahalaşmışdır. Qeyri-ərzaq məhsulları və xidmətlərin qiymətlərinin 12 aylıq dəyişimi müvafiq olaraq 1.2% və 1.1% təşkil etmişdir. Qeyri-ərzaq məhsulları üzrə qiymətlər noyabrda ötən ayla müqayisədə 0.5%, son 1 ildə 7.1% yüksəlmişdir. Yanvar-noyabr aylarında orta illik qeyri-ərzaq inflyasiyası 4.8% olmuşdur.

Xidmətlər noyabrda 1.6%, son 1 ildə 9.1% bahalaşmışdır. Orta illik xidmət inflyasiyası yanvar-noyabrda 5.4% təşkil etmişdir. 2021-ci il xidmətlər üzrə inflyasiyaya dövlət tənzimlənməsi tətbiq edilən qiymətlərin liberallaşdırılması amilinin təsirləri davam edir.

2021-ci il ərzində isə orta illik inflyasiya yanvar-noyabr aylarında 6.2%, orta illik baza inflyasiya isə 3.9% təşkil etmişdir. İnflyasiyanın yüksəlməsi bütün məhsul və xidmət alt qrupları üzrə davam edir.

2021-ci ili noyabr ayında ərzaq məhsulları üzrə qiymət indeksi ötən ayla müqayisədə 1.9% yüksəlmiş, illik ərzaq inflyasiyası 14.9% təşkil etmişdir. Orta illik ərzaq inflyasiyası isə yanvar-noyabr aylarında 7.4% olmuşdur.

Azərbaycan Respublikasının Statistika Komitəsinin verdiyi məlumata əsasən 2023-cü ildə əhalinin pul gəlirləri nominal olaraq 12.8% artaraq 78.1 mlrd. manat olmuş, o cümlədən adambaşına düşən pul gəlirləri hesabat dövründə 7686.9 manat təşkil etmişdir. Əhalinin sərəncamında qalan gəlirlər 12.8% artaraq 69.3 mlrd. manata çatmışdır. Yanvar-noyabr ayları ərzində ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı ötən ilin müvafiq dövrünə nəzərən 11.2% artaraq 923.1 manat təşkil etmişdir.

Hesabat ilində manatın məzənnəsi ticarət tərəfdaşı olan digər ölkələrin valyutalarına qarşı fərqli istiqamətlərdə dəyişmişdir. İkitərəfli məzənnələrin dinamikası çoxtərəfli məzənnənin dinamikasına da təsir göstərmişdi. Ümumilikdə, il ərzində manatın nominal effektiv məzənnəsi 19.3%, real effektiv məzənnəsi isə 5.1% möhkəmlənmişdir. Azərbaycandakı inflyasiyanın tərəfdaş ölkələrdəki orta inflyasiyadan əhəmiyyətli aşağı olması real effektiv məzənnəyə azaldıcı təsir etmişdir. Manatın nominal effektiv məzənnəsinin möhkəmlənməsi inflyasiya idxalını məhdudlaşdıran başlıca amillərdən biri kimi çıxış etmişdir.

2023-cü ildə  illik inflyasiyanın dinamikası həm xarici amillərdən, həm də ölkədə həyata keçirilən antiinflyasiya tədbirlərindən təsirlənmişdir. Ticarət tərəfdaşı olan ölkələr üzrə orta çəkili inflyasiyada

enişin davam etməsi ölkəyə inflyasiya idxalını azaltmışdır. Bu, əsasən dünya əmtəə qiymətlərinin azalması, qlobal iqtisadi aktivliyin zəifləməsi və əksər ölkələrdə həyata keçirilən sərt pul siyasəti ilə izah edilir.

Xarici sektor göstəricilərinin pozitiv dinamikası şəraitində və qəbul olunmuş makroiqtisadi siyasət çərçivəsində manatın məzənnəsinin sabitliyi davam etmişdir. Manatın məzənnəsinin sabit qalması inflyasiya səviyyəsinə və inflyasiya gözləntilərinə azaldıcı təsir göstərən mühüm amillərdən biri olmuşdur. Məzənnənin sabitliyi başlıca olaraq əhalinin əmanətləri üzrə dollarlaşmanın azalması proseslərinin sürətlənməsi ilə müşaiyət olunmuşdur.

İqtisadi artım, maliyyə vəsaitlərinin cəlb edilməsi və kapitalın dəyəri ilə bağlı qeyri-müəyyənliklər hələ də mövcudur və bu, Şirkətin gələcək maliyyə nəticələrinə, maliyyə vəziyyətinə və biznes perspektivlərinə hazırda müəyyən edilə bilməyən dərəcədə mənfi təsir göstərə bilər.

Şirkətin Rəhbərliyi hazırkı iqtisadi mühitdə baş verən dəyişiklikləri müşahidə edir və Şirkətin yaxın gələcəkdə fəaliyyətinin dayanıqlığını və inkişafını dəstəkləmək üçün qabaqlayıcı tədbirlər görür.

## 3. Əsas uçot siyasətlərinin qısa xülasəsi

### Maliyyə hesabatlarının hazırlanmasının əsası

Qrupun maliyyə hesabatları Beynəlxalq Maliyyə Hesabatı Standartlarına ("BMHS") uyğun olaraq hazırlanmışdır. Bu maliyyə hesabatlarının hazırlanmasında istifadə olunan əsas uçot prinsipləri təqdim edilmiş bütün dövrlərə ardıcıl şəkildə tətbiq edilmişdir.

31 dekabr 2023-cü il tarixində başa çatan il üzrə hazırkı maliyyə hesabatları Qrupun BMHS-a uyğun olaraq hazırladığı illik maliyyə hesabatlarıdır.

### Xarici valyutanın çevrilməsi

Qrupun funksional valyutası onun fəaliyyət göstərdiyi iqtisadi mühitin valyutasıdır. Qrupun funksional valyutası Azərbaycan Respublikasının milli valyutası olan Azərbaycan Manatıdır. ("AZN"). Çünki Qrupun gəlirləri, xərcləri, alınmış mal-material ehtiyatları və öhdəliklərinin əhəmiyyətli hissəsinin qiymətləndirilməsi, çəkilməsi, ödənilməsi və ya digər yolla ölçülməsi AZN ilə həyata keçirilir.

Azərbaycan Respublikasının ərazisindən kənarda AZN sərbəst dönərli valyuta deyil. Monetar aktiv və öhdəliklər Azərbaycan Respublikası Mərkəzi Bankının müvafiq hesabat tarixinə qüvvədə olan rəsmi valyuta məzənnəsinə əsasən müəssisənin funksional valyutasına çevrilir. Bu cür əməliyyatlar üzrə hesablaşmaların həyata keçirilməsi və Mərkəzi Bankın ilin sonuna olan rəsmi valyuta məzənnəsi ilə monetar aktiv və öhdəliklərin müəssisənin funksional valyutasına çevrilməsi nəticəsində yaranan müsbət və ya mənfi məzənnə fərqləri Mənfəət və ya Zərər Haqqında Hesabatda qeydə alınır. Bazar dərəcələri rəsmi dərəcələrdən fərqli ola bilər, lakin bu fərqlər ümumilikdə Mərkəzi Bank tərəfindən nəzarət edilən dar parametrlər çərçivəsindədir. Xarici valyuta ilə əməliyyatlar əməliyyat tarixində rəsmi məzənnə ilə qeydə alınır.

**Ölçü və hesabat metodu**

Maliyyə hesabatları hazırlanarkən mühasibat uçotunun hesablama metodu tətbiq olunmaqla ilkin dəyər uçot prinsiplərinə əsaslanmışdır.

*İlkin dəyər* alış tarixinə aktivi almaq üçün ödənilmiş pul vəsaitləri və ya pul vəsaitləri ekvivalentlərinin məbləğini və yaxud verilmiş digər resursların ədalətli dəyərini əks etdirir və əməliyyat xərclərini ehtiva edir.

**Aktivlər**

Qrupun aktivləri özündə keçmiş hadisələrin nəticəsi kimi qurum tərəfindən idarə edilə bilən və ona gələcəkdə iqtisadi səmərə gətirə biləcəyi gözlənilən resursları birləşdirir ki, bunlar da maddi və qeyri-maddi, onlar da öz növbəsində müvafiq olaraq uzun və qısa müddətli kimi uçota alınır.

Qrupun uzunmüddətli aktivlərinə isə ticarət investisiyaları - yaxın gələcəkdə istifadəsi nəzərdə tutlmayan yatırımlar, dəyəri 500.00 manatdan aşağı olmayan, 12 ay müddətində realizasiya ediləcəyi ehtimal olunmayan əsas vəsaitlər daxildir.

Qrupun qısamüddətli aktivlərinə likvidlik dəyəri yüksək olan, əsasən alqı-satqı məqsədləri və ya istifadə üçün saxlanılan, hesabat tarixindən sonra 12 ay müddətində realizasiya ediləcəyi ehtimal olunan, həmçinin hesabat tarixindən növbəti 12 ay müddətində mübadiləsinə və ya istifadəsinə məhdudiyyət qoyulmayan pul vəsaiti və ya onun ekvivalentləri daxildir.

**Öhdəliklər**

Qrupun öhdəlikləri onun keçmiş hadisələrdən yaranmış və ödənilməsi özündə iqtisadi səmərəni təcəssüm etdirən resurslarının qurumdan kənara axını ilə nəticələnən mövcud borcu olmaqla, uzun və qısamüddətli kimi təsnifləşdirilir.

Qrupun uzunmüddətli öhdəliklərinə yaxın gələcəkdə ödənilməsi nəzərdə tutulmayan borclar, 12 ay müddətində realizasiya ediləcəyi ehtimal olunmayan digər borclar, kreditlər daxildir.

Qrupun qısamüddətli öhdəliklərini müəssisənin adi əməliyyat dövründə ödənilməsi nəzərdə tutulan, hesabat tarixindən etibarən 12 ay ərzində ödənilməsi ehtimal edilən və öhdəliyin yerinə yetirilməsi üçün hesabat tarixindən ən azı 12 ay müddətinə kimi ödənilməsini tələb edən şərtsiz hüquqa malik olduğu öhdəliklər təşkil edir.

**Kapital**

Kapital bütün öhdəliklər çıxıldıqdan sonra, qurumun xalis aktivlərinin dəyəridir ki, ona nizamnamə kapitalı, cari ilin mənfəəti (zərəri), keçmiş illərin bölüşdürülməmiş mənfəəti (zərəri) aiddir.

**Məhkəmə prosesləri**

Normal iş prosesi zamanı Qrupa qarşı hər hansı hüquqi iddialar və şikayətlər ola bilər. Müəssisə rəhbərliyi hesab edir ki, bu iddialarla bağlı hər hansı bir əhəmiyyətli zərər baş verməyəcəkdir və müvafiq olaraq maliyyə hesabtlarında zərərlərin ödənilməsi üçün ehtiyat yaradılmamışdır. 31 dekabr 2023-cü il tarixində tamamlanan il ərzində Qrup hər hansı məhkəmə prosesinə cəlb olunmamış və ona qarşı hər hansı iddia irəli sürülməmişdir.

**Vergi qanunvericiliyi**

Qrup Azərbaycanda müəssisələrə tətbiq olunan vergilərə cəlb olunur.

Müəssisədən tutulan vergi gəlirdən çıxılmayan xərcləri əlavə etməklə və vergiyə cəlb olunmayan gəliri çıxmaqla yerli qanunvericiliyə uyğun olan uçot mənfəətindən hesablanan, müəssisənin vergiyə cəlb olunan gəlirinə tətbiq olunur.

Azərbaycan Respublikasında müəssisənin mənfəət vergisi üzrə avans ödənişlər hər rüb həyata keçirilir. 2023-cü il ərzində müəssisənin mənfəət vergisinin dərəcəsi 20% (2022-ci il 20%) olmuşdur.

Azərbaycanın vergi sistemi iki alternativ vergi rejimindən ibarətdir: Vergi Məcəlləsinin tənzimlədiyi

vergi rejimi və Hasilatın Pay Bölgüsü Haqqında Sazişlərin tənzimlədiyi vergi rejimi.

Bundan başqa Azərbaycan Respublikası və ƏİBK (Əsas İxrac Boru Kəməri) layihəsinin iştirakçıları tərəfindən imzalanmış CQBK (Cənubi Qafqaz Boru Kəməri) Əsas Boru Kəməri haqqında Saziş fərqli vergi qaydalarını nəzərdə tutur.

Azərbaycan Respublikasının vergi, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə və tez-tez baş verə bilən dəyişikliklərə məruz qalır. Qrupun əməliyyatları və fəaliyyəti ilə bağlı vergi qanunvericiliyinə dair rəhbərliyin mövqeləri müvafiq vergi orqanları tərəfindən sual altında qoyula bilər. Bunun nəticəsində Qrupun göstərdiyi xidmətlərə görə ona qarşı bazar qiyməti tətbiq edərək müəyyən əlavə vergilər, cərimələr və faizlər hesablana bilər. Vergi bəyannamələri, eləcə də digər tənzimləyici sahələr (məsələn, gömrük və valyuta nəzarəti məsələləri) qanunla cərimələr, tutulmalar və faiz ödənişləri tətbiq edilə bilən bir sıra müxtəlif orqanların təhlil və araşdırmasına tabedir. Bu faktlar Azərbaycan Respublikasında vergi risklərini yarada bilər.

Vergi orqanları tərəfindən vergi ödəyicisinin son üç təqvim ilindən çox olmayan fəaliyyəti yoxlanıla bilər. Müəyyən hallarda yoxlama daha artıq dövrləri əhatə edə bilər.

Qrupun rəhbərliyi hesab edir ki, onun tərəfindən müvafiq qanunvericiliyin şərhi düzgündür və vergi, xarici valyuta və gömrük qanunvericiliyi ilə bağlı Qrupun mövqeləri dəyişilməyəcəkdir.

**Əlavə dəyər vergisi**

Vergi qanunvericiliyi satış və alışlar üzrə əlavə dəyər vergisinin (ƏDV) əvəzləşdirilərək ödənilməsinə icazə verir.

ƏDV üzrə ödəniləcək məbləğlər maliyyə vəziyyəti haqqında hesabat tarixinə ödənilmiş alışlar üzrə ƏDV-ni çıxmaqla, sifarişçilərə satışlar tanınanda vergi orqanları vasitəsilə dövlət büdcəsinə ödəniləcək satışlara aid olan ƏDV məbləğindən ibarətdir. Bundan əlavə, maliyyə vəziyyəti haqqında hesabat tarixinə ödənilməmiş satışa aid olan ƏDV də ƏDV üzrə ödəniləcək məbləğlərə daxil edilir.

Əvəzləşdirilə bilən ƏDV maliyyə vəziyyəti haqqında hesabat tarixinə ödənilməmiş alışlara aiddir. Əvəzləşdirilə bilən ƏDV alışlar üçün ödəmə aparıldıqda satış üzrə ƏDV hesabı ilə əvəzləşdirilə bilər.

## 4. Əsas vəsaitlər

Müəssisənin əsas vəsaitləri mühasibat uçotu və hesabatında ilkin dəyəri ilə, yəni onların alınmasına, quraşdırılmasına və hazırlanmasına, həmçinin istismara verilməsinə çəkilən faktiki xərc məbləğində əks

etdirilir. Əsas vəsaitlərin ilkin dəyəri onlar yenidən qiymətləndirildikdə, yenidən qurulduqda, onlara yeni avadanlıqlar quraşdırıldıqda və onların müvafiq obyektləri qismən ləğv edildikdə dəyişdirilə bilər.

Auditlə əhatə olunan dövr ərzində əsas vəsaitlərin yenidən qiymətləndirilməsi həyata keçirilməmişdir.

*Maddi aktivlərin işlənib təkmilləşdirilməsi*

Əsas vəsaitlərin satışından yaranan gəlir və zərər satışdan əldə olunmuş vəsaitlərin məbləği ilə balans dəyəri arasındakı fərq kimi müəyyən edilir və mənfəət və ya zərərə daxil edilir.

Bütün kiçik həcmli təmir və istismar xərcləri çəkildiyi zaman xərcə silinir. Əsas vəsaitlərin əsas hissələrinin və ya komponentlərinin dəyişdirilməsi xərcləri kapitallaşdırılır və əvəz edilmiş hissələr istismardan çıxarılır. Əsas vəsaitlər ilə bağlı sonrakı xərclər müvafiq olaraq aktivin balans dəyərində və ayrıca aktiv kimi yalnız o halda tanınır ki, həmin aktivlə bağlı gələcək iqtisadi səmərənin Qrupa daxil olması ehtimal edilsin və onun dəyəri etibarlı şəkildə ölçülə bilsin.

Yüksək texnologiyalar məhsulu olan hesablama texnikası, maşın və avadanlıqlar və digər əsas vasitələr üzrə köhnəlmə azalan qalıq dəyəri metodunu istifadə etməklə hesablanır. Köhnəlmənin azalan qalıq dəyəri metodu aktivin əvvəlki ilin sonuna qaliq dəyərinə cari ildə daxil olmuş əsas vəsaitlərin dəyərini gəlməklə müvafiq qanunvericiliklə müəyyənləşdirilmiş amortizasiya normalarini tətbiq etməklə hesablanir.

| **Əsas vəsaitlər** | **Amortizasiya normaları** |
|---|---|
| Binalar, tikililər və qurğular | 7%-dək |
| Maşınlar və avadanlıq | 20%-dək |
| Yüksək texnologiyalar məhsulu olan hesablama texnikası | 25%-dək |
| Nəqliyyat vasitələri | 25%-dək |
| Digər əsas vasitələr | 20%-dək |

Aktiv artıq köhnəlmiş və istismar müddətinin sonunda olacağı vəziyyətdə olarsa, Qrupun həmin aktivin satışı nəticəsində əldə edəcəyi təxmini məbləğ, satış üzrə təxmini xərclər çıxılmaqla, aktivin qalıq dəyərinə bərabər olur. Əgər Qrup aktivlərini fiziki istismar müddətinin sonuna qədər istifadə etməyi nəzərdə tutursa və ləğvetmə dəyəri əhəmiyyətli deyilsə, aktivin qalıq dəyəri sıfıra bərabər olur.

Əsas vəsaitlər yığılmış köhnəlmə çıxılmaqla, aşağıda göstərilən dəyərlə uçota alınır:

| | Binalar, tikililər və qurğular | Maşın və avadanlıq | Nəqliyyat vasitələri | Yüksək texnologiyalar məhsulu olan hesablama texnikası | Digər əsas vəsaitlər | Cəmi |
|---|---|---|---|---|---|---|
| **01 yanvar 2022-ci il tarixinə** | **5 263 859,93** | **21 366,05** | **231 992,72** | **335 826,37** | **85 952,89** | **5 938 997,96** |
| **Daxilolmalar** | 19 770,50 | | 100 000,00 | 506 142,81 | | **625 913,31** |
| **Silinmələr** | | | (9 134,61) | | | **(9 134,61)** |
| **Köhnəlmə xərci** | (342 842,32) | (5 085,86) | (94 379,07) | (204 532,26) | (19 873,38) | **(666 712,89)** |
| **31 dekabr 2022-ci il tarixinə** | **4 940 788,11** | **16 280,19** | **228 479,04** | **637 436,92** | **66 079,51** | **5 889 063,77** |
| | | | | | | |
| **01 yanvar 2023-cü il tarixinə** | **4 940 788,11** | **16 280,19** | **228 479,04** | **637 436,92** | **66 079,51** | **5 889 063,77** |
| **Əvvəlki hesabat dövründə dəyişikliklər və ya əhəmiyyətli səhvlərlə bağlı düzəlişlər** | (18 507,94) | - | - | - | - | **(18 507,94)** |
| **Daxilolmalar** | | | 31 691,02 | 246 214,20 | 10 593,04 | **288 498,26** |
| **Silinmələr** | | | (3 899,23) | (29 286,25) | (7 859,78) | **(41 045,26)** |
| **Köhnəlmə xərci** | (301 979,60) | (3 819,62) | (77 732,24) | (166 900,75) | (15 860,84) | **(566 293,05)** |
| **31 dekabr 2023-cü il tarixinə** | **4 620 300,57** | **12 460,57** | **178 538,59** | **687 464,12** | **52 951,93** | **5 551 715,78** |

## 5. Debitor borcları

Debitor borcları aşağıdakılardan ibarət olmuşdur:

| Digər debitor borcları | 31 dekabr 2022-ci il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| Ticarət ilə bağlı debitor borcları | 16 274 595,00 | 10 019 449,62 |
| **Cəmi debitor borcları** | **16 274 595,00** | **10 019 449,62** |

## 6. Kreditor borcları

Kreditor borcları aşağıdakılardan ibarət olmuşdur:

| Kreditor borcları | 31 dekabr 2022-ci il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| Ticarət ilə bağlı borclar | 29 308 531,69 | 16 972 844,09 |
| **Cəmi kreditor borcları** | **29 308 531,69** | **16 972 844,09** |

## 7. Ehtiyyatlar

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| Mallar | 49 519 557,01 | 39 108 383,02 |
| **Cəmi ehtiyyatlar** | **49 519 557,01** | **39 108 383,02** |

## 8. Satişdan gəlirlər

Qrupun gəliri mülkiyyətçilərin kapital qoyuluşu ilə əlaqəli olmayan, lakin kapitalda artım ilə nəticələnən və hesabat dövrü ərzində aktivlərin daxil olması və ya artması, və ya öhdəliklərin azalması şəklində iqtisadi səmərənin artımıdır.

Gəlirlərin məbləği etibarlı şəkildə qiymətləndirildikdə, gələcək iqtisadi səmərənin müəssisəyə daxil olması ehtimal edildikdə Qrupun gəliri tanıyır.

Gəlirlər Qrupun adi fəaliyyətinin gedişində göstərilmiş xidmətlərə görə aldığı və ya alacağı məbləğin dəyərini əks etdirir.

Malların və xidmətlərin satılması müqavilə üzrə təqdim ediləcək ümumi malların və göstəriləcək ümumi xidmətlərin müəyyən bir hissəsi olaraq faktiki təqdim edilmiş mallar və göstərilmiş xidmətlər əsasında qiymətləndirilmiş konkret əməliyyatın tamamlanma mərhələsinə istinadən həmin malların təqdim edildiyi və xidmətlərin göstərildiyi uçot dövründə qeydə alınır.

Satışdan gəlirlər aşağıdakılardan ibarət olmuşdur:

| Satışlardan gəlirlər | 2022 | 2023 |
|---|---|---|
| Malların təqdim edilməsindən və işlərin görülməsindən gəlir | 152 037 735,65 | 206 790 496,18 |
| **Cəmi satışdan gəlirlər** | **152 037 735,65** | **206 790 496,18** |

## 9. Əməliyyat və digər inzibati xərclər

Qrupun xərcləri mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi ilə əlaqəli olmayan, lakin kapitalın azalması ilə nəticələnən, hesabat dövrü ərzində aktivlərin kənara axını və ya azalması və ya öhdəliklərin artması hesabına baş verən iqtisadi səmərənin azalmasıdır.

31 dekabr 2023-cü il tarixində başa çatan il üzrə əməliyyat və digər inzibati xərcləri aşağıdakılardan ibarət olmuşdur:

| **MADDƏLƏR** | **31 dekabr 2022-ci il** | **31 dekabr 2023-cü il** |
|---|---|---|
| Əmək haqqı xərcləri | 10 373 404,91 | 11 741 354,58 |
| Sosial müdafiə fonduna ayırmalar | 1 855 237,02 | 1 987 767,09 |
| Malın maya dəyəri | 113 999 340,33 | 121 702 444,58 |
| Nəqliyyat xərci | 28 517,75 | 102 848,15 |
| İcarə haqqına çəkilən xərclər | 946 427,55 | 1 083 381,87 |
| Əsas vəsaitlərin amortizasiyası | 666 712,89 | 603 681,54 |
| Qeyri-maddi aktivlərin amortizasiyası | 30 209,71 | 41 308,26 |
| Sığorta xərcləri | 64 209,37 | 202 057,61 |
| Əmlak vergisi | 52 091,55 | 49 344,78 |
| Torpaq vergisi | 170,9 | 170,90 |
| Ezamiyyət xərcləri | 491 873,92 | 598 102,09 |
| Komunal xərclər | 84 816,03 | 82 267,41 |
| Rabitə xərcləri | 265 561,97 | 266 480,98 |
| Mühafizə xərcləri | 32 850,42 | 33 221,30 |
| Bank xərcləri | 705 794,94 | 711 977,18 |
| Reklam xərcləri | 205 900,79 | 141 951,99 |
| Digər xidmətlərin dəyəri | 1 136 404,91 | 8 357 320,12 |
| Sair xərclər | 303 539,15 | 1 782 281,13 |
| Təmir xərcləri | 0,00 | 65 328,55 |
| Qeyri rezidentdən alınmış xidmətlər | 0,00 | 5 676 254,19 |
| **CƏMİ** | **131 243 064,11** | **155 229 544,30** |

## 10. Alınmış avanslar

31 dekabr 2023-cü il tarixinə Qrupun Maliyyə Vəziyyəti Haqqında Hesabatında alınmış avanslar kimi

göstərilmiş 11 266 739.42 manat məbləğə gələcəkdə təqdim ediləcək mallara aid olunacaq məbləğlər daxildir, Qrupun hesablama metoduna uğun olaraq gəlirlərini gəlir əldə edilməsinin və xərc çəkilməsinin faktiki vaxtından asılı olmayaraq müvafiq surətdə gəlir almaq hüququnun əldə edildiyi və ya xərcin çəkilməsi barədə öhdəliyin yarandığı vaxt nəzərə alır.

## 11. Verilmiş avanslar

2023-cü il tarixində başa çatan il üzrə malların və əsas vəsaitlərin alışları olmadığı üçün Maliyyə Vəziyyəti Haqqında Hesabatda verilmiş avans kimi öz əksini tapmışdır. Alışlar həyata keçirildikdən sonra əldə olunan mallar və əsas vəsaitlər Maliyyə Vəziyyəti Haqqında Hesabatda təyinatına müvafiq olaraq öz əksini tapacaqdır.